*Nizamişünaslıq 13, №2, 2025, səh. 50-56*

https://doi.org/10.59849/3006-2403.2025.2.50

***Afaq YUSİFLİ***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***Gəncə Dövlət Universiteti***
***Azərbaycan və dünya ədəbiyyatı kafedrası***
**ORCİD 0000-0001-8621-850X** ***E-E-***
***E-mail: yusifli.afaq@mail.ru***

# NİZAMİ YARADICILIĞININ ORTA MƏKTƏBDƏ TƏDRİSİ MƏSƏLƏLƏRİ

*Açar sözlər:* tədris, “Xəmsə”, “İskəndərnamə”, dərslik, xrestomatik mövzular

*Giriş*

Hər il yenilənən ümumtəhsil proqramları və “Ədəbiyyat” dərslikləri müasir tədrisin tələblərinə uyğunlaşdırılır. Orta məktəbdə ədəbiyyat tədrisinin qarşısında duran əsas məsələ yeniləşən, sürətlə inkişaf edən dünyada yaşayan, müxtəlif mənbələrdən külli miqdarda informasiya alan şagirdlərə istər şifahi ədəbiyyatımızı, istər klassik sənətkarların yaradıcılığını, istərsə də müasir ədəbiyyatımızı daha maraqlı təqdim etməkdir. Bu zaman həm xrestomatik mövzulardan, həm də məlum və məşhur sənətkarların əvvəllər tədris edilməmiş əsərlərindən istifadə olunur. Ədəbiyyat tədrisinin müxtəlif ictimai-siyasi quruluşlara təsadüf edən tarixi boyu yaradıcılığı diqqət mərkəzində duran sənətkarlardan ən qüdrətlisi Nizami Gəncəvidir. İstər XIX əsr maarifçilərinin dərsliklərində, istərsə də XX əsrin əvvəllərində tərtib olunan toplularda Nizami yaradıcılığındakı əxlaqi-didaktik istiqamətin təbliği çox güclü idi. Sovet dönəmində də Nizami yaradıcılığı diqqət mərkəzində idi, xüsusilə zəhmətkeş insanın obrazının vurğulanması, “Xoşbəxtlər ölkəsi”nin sırf bir “kommunist cənnəti” kimi təqdim olunması dahi sənətkarın ideyalarının təhrif olunmasından başqa bir şey deyildi. Bu zaman Nizaminin islami dəyərləri təbliğ edən minacatları, tövhidləri haqqında bir kəlmə belə deyilmirdi. Nizaminin “İskəndərnamə” poemasında ruslar haqqında söylədiyi fikirlərin üstündən sükutla keçilir, “Yeddi gözəl”dəki slavyan qızı obrazı isə həddindən artıq şişirdilərək oxuculara ideal obraz kimi təqdim edilirdi. Təbiidir ki, bütün bunlar dərsliklərdəki təhlillərə aid idi. Əsərlərin mətni isə dəyişdirilə bilməzdi. Buna görə də F. Köçərlinin qeyd etdiyi kimi təhlil edilən əsərin məzmunu ilə tanış olmadan, onun ideya və bədii xüsusiyyətlərini də dərindən mənimsəmək çətin olur. Şagird məhz məzmunu ilə tanış olduğu əsəri daha tez başa düşür, onun haqqındakı təhlili yaxşı mənimsəyir və möhkəm yadda saxlayır. Mətni oxunmayan, üzərində lazımi metodiki iş aparılmayan əsərin ideya-bədii xüsusiyyətləri də çətin başa düşülür, uzun müddət yadda qalmır. (Əhmədov, 1971, s. 54)

Hal-hazırda məktəbdə tədris olunan ədəbi nümunələr məhz əsərin mətninə, onun dərsliyin özündə, əgər bu məktəbin aşağı pilləsidirsə, ya da ayrıca dərslik kimi təqdim olunan müntəxəbatda, əgər bu yuxarı sinifdirsə, əks olunan, ixtisarla və ya tam şəkildə verilən mətninə əsaslanır. Orta ümumtəhsil məktəbinin beşinci sinfində tədris olunan bədii nümunələr bu baxımdan xüsusilə maraqlıdır. Nizami yaradıcılığından tədris olunan həmin nümunələr iki ayrı bölmədə verilib. “Əməyə məhəbbət, zəhmətə çağırış” bölməsində “Kərpickəsən kişinin dastanı” mənzum hekayəsi tədris olunur.

“Minacat” mövzusunun tədrisi şagirdlər üçün tamamilə yeni olduğundan mövzunun öyrənilməsinə hazırlıq aparılmalıdır. Nizami Gəncəvinin həyatı və yaradıcılığı haqqında məlumat hissəsində yeni informasiya olsa da, əslində şagirdlərin ibtidai sinifdə əldə etdikləri biliklərə əsaslanır. Lakin bilavasitə “Minacat” parçasının tədrisinə başlamazdan öncə şagirdləri nəzəri cəhətdən hazırlamaq lazımdır. Təbiidir ki, beşinci sinif şagirdlərinə qəsidə və

onun növü kimi minacat haqqında danışmağa ehtiyac yoxdur, sadəcə minacatın nədən bəhs etdiyini aydın və qısa şəkildə şərh etmək lazımdır. “Minacat”ın mətn kimi çətin mövzu olduğunu nəzərə alsaq, ibtidai sinifdə kiçik və bəsit mətnlərə öyrənmiş şagirdin birdən-birə üstəlik onun üçün bir qədər anlaşılmaz olan poema, qəsidə və onun növü kimi minacat haqqında məlumatlar alması Nizami dühasına və yaradıcılığına pillə-pillə aparan yolda maneəyə də çevrilə bilər. Sadədən mürəkkəbə doğru aparan anlama və tanıma yolunda bu mövzu əslində kiçik yaşlı məktəbli üçün bir stressdir.

Allaha sevgisini özünü borclu saydığı için deyil, ruhundakı yaradan atəşindən alan dahi Nizami bütün əsərlərinin başlanğıcında ulu Tanrıya sonsuz məhəbbətini ifadə etmişdir. Şair Allahın mərhəmətli olmasından, öz bəndələrini sevməsindən dönə-dönə yazmışdır. “Minacat” parçasını oxuyarkən şagirdlər bir sıra çətin ifadələrlə, izahata ehtiyacı olan fikirlərlə rastlaşacaqlar. Əsər tərcümə olduğundan mətnin ifadəli oxusu xüsusi hazırlıq tələb etmir və lüğət üzərində işə ehtiyac yoxdur, bunun əvəzində izahata ehtiyacı olan (5-ci sinif şagirdi səviyyəsində) ifadələrin üzərində dayanmağa ehtiyac vardır.

Xudaya! Gilimiz mayələnirkən,
Bir vəsiqə yazdın o gün bizə sən.

Beytinin mahiyyəti müəllim tərəfindən izah olunmalıdır: dini etiqada görə bəşər övladı gildən yaradılmış, Yaradan ona ruh vermiş, cansız gili, torpağı düşünən, inanan, yaşayan insana çevirmişdir.

Yerə, göyə sığmaz qüdrətinlə sən
Zəif qullarını məhv edərmisən?

Bu beytdə ifadə olunan emosional sualda şairin Allahın əfv etmək qüdrətinin böyüklüyünə sonsuz inamı əks olunmuşdur. İnsanı Yaradanın sonsuz qüdrəti qarşısında zəif hesab edən, lakin yazıqlaşdırmayan, sadəcə inamında yenilməz göstərən Nizaminin sonrakı beytdə yaxşılıq və yamanlığın insanın deyil, Allahın əlində olduğu fikri inkişaf etdirilir. Məzmun üzərində iş zamanı şagirdlərə istiqamətləndirici sualların və izahatların verilməsi vacibdir, lakin bu parçanın ideya-bədii dəyərini aydınlaşdırarkən şagirdlərə hazır təhlili əzbərlətmək deyil, onları sadəcə yönəltmək, müstəqil düşünməyə vadar etmək lazımdır. Yalnız bu yolla əslində onların yaş xüsusiyyətlərinə uyğun gəlməyən mövzunu sevdirmək, dahi Nizaminin qüdrətinə inandırmaq mümkündür.

Suallar iki istiqamətdə qruplaşmalıdır: Şairin Yaradana yalvarışlarının mahiyyəti və ən böyük arzusu; Allahın öz bəndələrinə verdiyi qiymət.

Bu suallar şagirdləri əsərin məzmununu mexaniki əzbərləməkdən xilas edir, onlar dahi şairin Yaradan haqqında fikirlərini təmtəraqlı sözlər kimi deyil, düşünən, qəlbi və beyni Allah eşqi ilə çırpınan, müqəddəs torpaqları ziyarət etmək arzusu ilə yaşayan insanın səmimi duyğuları kimi qəbul edir.

“Minacat” mövzusunun davamı kimi təqdim olunan “Peyğəmbərin tərifi” parçası da ümumtəhsil məktəbinin proqramına yeni daxil edilmişdir. “Nizami və tarix” monoqrafiyasında oxuyuruq: “Orta əsrlərin digər sənətkarları kimi, Nizami üçün də islam dininin prinsipləri istər ictimai, istərsə də fərdi həyatda bir fəaliyyət proqramı idi. Xüsusən islam peyğəmbərinin həyatı və fəaliyyəti Nizami üçün bir ideal, örnək, təqlid mənbəyi idi. Bu cəhət Nizami poemalarının giriş hissələrində öz bədii əksini tapmış nət və meracnamələrdə çox yaxşı əks olunmuşdur. Bir sıra epizodlarda peyğəmbərin həyatından konkret faktlar verilsə də, bütövlükdə Məhəmməd peyğəmbər Nizami poemalarında konkret tarixi şəxsiyyət kimi deyil, bütün dövrlərin və xalqların ən ideal insanı kimi, mücərrəd tarixi şəxsiyyət kimi çıxış edir”. (Mikayılov, 2007, s. 77–78)

Müasir şagird, hətta kiçikyaşlı olsa belə, dini dəyərlərimizdən xəbərdardır. Məhəmməd peyğəmbərin hədisləri ilə onlar ibtidai siniflərdə tanış olub, həyatı haqqında məlumat alıblar. Ona görə də istər əsərin məzmunu üzərində iş, istərsə də təhlili çətinlik yaratmır. Sadəcə

şagirdlərin müstəqil işini istiqamətləndirmək, onları əlavə məlumatlar toplamağa sövq etmək lazımdır. Hər şeydən öncə bu əsərin şagirdlərin Peyğəmbərimiz haqqında bildiklərinə nə əlavə etdiyini və şairin Yaradanla insan arasında yeganə vasitəçi hesab etdiyi Məhəmməd peyğəmbərdən nəyi xahiş etdiyinə diqqəti cəlb etmək lazımdır.

Ümumiyyətlə, hər iki mövzunun tədrisi zamanı təsvirçilikdən qaçmaq, mövzuları əzbərlənmiş aforizmlər şəklində mənimsətməkdən çəkinmək lazımdır. Əsərlərin mətni leksik cəhətdən asan olduğu üçün tədris zamanı əsas ağırlıq bu əsərlərin yazılma məqsədinin açıqlanmasına, daxili mənasının şagirdlər tərəfindən müstəqil şəkildə qavranılmasına yönəlməlidir.

Nizami Gəncəvinin "Kərpickəsən kişinin dastanı" mənzum hekayəsi zaman etibarilə əvvəlki mövzulardan xeyli sonra tədris olunur, həm də bu mövzunun istiqaməti də tamam başqadır. Yaradıcı əməklə əlaqədar tədris olunan həmin mənzum hekayənin müstəqil əsər kimi verilməsi o qədər də düzgün deyil. Əsərin "Sirlər xəzinəsi"ndən bir parça olduğu mütləq qeyd edilməli idi. Dərslikdə istər Nizaminin "Minacat" əsərinin "Xosrov və Şirin" poemasından götürüldüyünün, istərsə də "Kozetta" hekayəsinin V.Hüqonun "Səfillər" romanından bir parça olduğunun qeyd edilməsi dərslikdə vahidlik prinsipinin pozulduğunu göstərir. Bu hekayənin də "Sirlər xəzinəsi" poemasından bir parça olduğu qeyd edilməli idi.

"Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı" dərsliyində belə bir qeyd vardır: "Əmək və əmək adamına məhəbbət Nizami yaradıcılığını səciyyələndirən əsas keyfiyyətlərdəndir... Şair əməyi insanın zinəti, yaraşığı, onu hər cür bəlalardan qoruyan bir vasitə sayır. Nizami belə hesab edir ki, hər bir adam işləməli, zəhməti ilə dolanmalıdır... 'Süleyman və əkinçi', 'Kərpickəsən qocanın dastanı' hekayələrində Nizami öz fədakar zəhməti ilə ruzi qazanan, zəhmət çəkməyi özünə borc bilən sadə adamların heyranedici surətini yaradır". (Səfərli Ə., Yusifli X., 2008, s. 139)

"Kərpickəsən kişinin dastanı" əsərinin məzmunu üzərində iş aparılarkən hər şeydən əvvəl şairin fikirlərini, kərpickəsən qocaya münasibətini aydınlaşdırmaq, qocaya irad tutan gənclə bağlı deyilənlərə diqqət yetirmək, surətləri qiymətləndirərkən yazıçının niyyətini açıqlamaq vacibdir. Şagirdlər burada iki surətlə tanış olurlar, bunlardan biri ruzisini özü qazanan qoca zəhmətkeşdir. Digəri zahirən gözəl, zərif geyimli gəncdir. Qoca onun sözlərini dinləyərkən qəzəblənmir, sadəcə öz həyat mövqeyini təmkin və ağılla izah edir. Şagirdlər mətnlə tanışlıqdan sonra "Bu gənci lovğa, əməyə xor baxan adam saymaq olarmı?" tipli suala asanlıqla cavab verə bilərlər. Əlbəttə, bu belə deyil, gənc qocaya məsləhət verərkən onun əməyini lazımsız, mənasız hesab etdiyi üçün belə danışmır. Gənc qocaya məsləhət verərkən bu işin gənclərə layiq olduğunu söyləyir. Qoca bu sözlərin yersiz olduğunu düşünür, gəncə məsləhət görür ki, öz sözləri üzərində düşünsün və bu zaman onların nə qədər mənasız olduğunu anlayar. Axı insanın möhtaclığının yaşı yoxdur, bu hər yaşda kədərli və acınacaqlıdır. Gənc lovğa və təkəbbürlü olmadığından qocanın sözlərindən sarsılır, nahaq düşündüyünü dərk edir, hər bir yaşda məsləhətin düşünülmüş və yerində olmasının vacibliyini anlayır. İlk baxışda bəsit görünən, şagirdlərin hələ ibtidai sinifdə tanış olduqları bu əsər məqsədli təhlil olunduqda düzgün nəticə çıxarmağa imkan verir. Çünki hekayədə əsas mətləb yalnız əmək və əməkçi insanla bağlı deyil, yersiz məsləhətin gülünclüyü, insanın fəal həyat mövqeyi, möhtaclıq və əyilməzlik haqqında düşüncələrin əks olunması ilə də bağlıdır.

Orta ümumtəhsil məktəbinin 10-cu sinfində Nizami Gəncəvi yaradıcılığının tədrisinə 10 saat vaxt ayrılmışdır. Mövzu müntəxəbatdan və dərslikdən tədris olunur. Sevindirici haldır ki, yuxarı siniflərdə geniş və əhatəli şəkildə tədris olunan Nizami Gəncəvi yaradıcılığına dair məlumatlar ildən-ilə daha da təkmilləşdirilir, dahi şairin ədəbiyyatımızdakı inkarolunmaz mövqeyi, ailəsi haqqında məlumatlar, türk olmasını təsdiq edən faktlar daha aydın və inandırıcı şərh olunur. 2010–2024-cü illərdə çap olunmuş 10-cu sinif "Ədəbiyyat"

dərsliklərində Nizaminin vəfat tarixinin dəqiqliklə izahı verilmişdir. Lakin bir faktı da qeyd etmək lazımdır ki, şairin həyatında mübahisəli məsələləri izah etməklə yanaşı, lazımsız təfərrüatlar da öz əksini tapmışdır. Məsələn, Nizaminin dəfələrlə evlənməsi, lakin ailə həyatının xoşbəxt olmaması orta məktəb şagirdi üçün lazımsız qeydlərdir. Halbuki həyatı haqqında belə təfərrüatlı danışdıqdan sonra nədənsə 10-cu sinif üçün "Ədəbiyyat" dərsliyinin müəllifləri şairin ölüm tarixinin qeyd olunduğu qəbir daşının adını çəksələr də, həmin qəbir daşının vaxtilə və indi harada olduğunu qeyd etməyi unutmuşlar (əslində həmin qəbir daşı heç yerdə yoxdur). (Ədəbiyyat, 10-cu sinif dərsliyi, 2024, s. 47–48)

Unutmaq olmaz ki, bu dərslikdir, ondan yalnız orta məktəb şagirdləri istifadə etmirlər, bu dərslikdən təkcə məktəblə bağlı olanlar deyil, sadəcə ədəbiyyatla maraqlanan və müxtəlif təbəqələrə mənsub şəxslər istifadə edə bilər. Nizaminin Gəncədə yaşaması və dəfn olunması məlum və məşhur bir fakt olsa da, dərslik müəlliflərinin fikirləşdikləri kimi hamının bu faktı bildiyi ehtimal olunsa da, hərçənd ki, zaman-zaman Nizamiyə sahiblənmək istəyənlər ona müxtəlif "vətənlər" tapmağa cəhd göstərirlər, Nizaminin dəfn olunduğu şəhərin – Gəncənin adı mütləq həmin qeydlə bağlı göstərilməli idi. Çünki dərsliyin digər bölmələrində, məsələn, Xətayinin Ərdəbildə, Nəsiminin Hələbdə, Füzulinin Kərbəlada dəfn olunduğu qeyd edilir, onların qəbirlərinin ziyarətgah olduğu vurğulanır. Halbuki indi də ziyarətgah olan və 800 ildən çox bir zaman ərzində heç bir məcburiyyət olmadan gəncəlilərin müqəddəs saydığı, öz əzizləri və Şahzadə İbrahimdən öncə Şeyx Nizamiyə dualar oxudub Nizami qəbrini müqəddəs saymaları danılmaz bir faktdır. Dərslikdəki bu xətanı sadəcə unutqanlıq hesab etmək nə dərəcədə doğrudur?!

Əsərlərində dövrünün, zəmanəsinin real mənzərəsini tarixə müraciətlə yaratmağa nail olmuş dahi Nizami "Xəmsə" üzərində bütün ömrü boyu – 30 il işləmiş, ölməz sənət abidəsi yaratmışdır. "Xəmsə"də dövrün, mühitin geniş epik lövhələrini cızan şair" (Səfərli Ə., Yusifli X., 2008, s. 126) bir poemasında irəli sürdüyü fikir və ideyalarını sonrakı əsərində davam və inkişaf etdirmiş, mənən, fikrən bir-birinə yaxın olan obrazlar silsiləsi yaratmışdır.

Dərslikdə "Xəmsə"yə daxil olan poemaların ideya-məzmunu haqqında məlumatlar informativ cəhətdən çətin olsa da, şagirdləri istiqamətləndirmək yolu ilə fakt bolluğunun öhdəsindən gəlmək olar. Xronoloji ardıcıllıqla hər bir poema üçün dərslik əsasında məlumat hazırlanmalı, cədvəl tərtib edilməlidir. "Xəmsə"yə daxil olan poemaların yazılma ili, ithaf olunduğu şəxs, mövzusu, quruluşu, əsas qəhrəmanları haqqında məlumatlar burada əks olunmalıdır. Yalnız bundan sonra poemalarda irəli sürülən mətləblərin müqayisəli təhlili aparılmalıdır. Yəni şagirdlər mövzunu sadəcə faktik material kimi deyil, müqayisəli şəkildə, hər bir əsərin surətlər aləmini sxematik toplu kimi deyil, canlı obrazların portretləri səviyyəsində qavramalıdır. "Xəmsə"nin hər bir poeması müxtəlif mənbələrdən götürülmüş, cəmiyyətin həyatındakı real həqiqətləri əks etdirir və bu zaman Nizami Gəncəvi həlli vacib olan problemləri diqqət mərkəzinə çəkmişdir. İnsan və zaman, şəxsiyyət və cəmiyyət, hüquq və vəzifə, azadlıq və mənəvi əsarət – bu problemlərin bəsit bir siyahısıdır. Poemaların xüsusiyyətləri ilə bağlı tədris başa çatdıqdan sonra şagirdlər "İsgəndərnamə" poemasının mövzu qaynaqları, yazılma səbəbləri ilə tanış olurlar. Bir çox tədqiqatçıların bu poemanı Nizami yaradıcılığının möhtəşəm yekunu hesab etmələri təsadüfi deyildir. "... əsərin meydana çıxmasını bir tərəfdən Nizaminin öz ədəbi fəaliyyəti, axtarışları, o biri tərəfdən Yaxın Şərq xalqlarının elm və incəsənətinin gur inkişafı hazırlamışdı". (Səfərli Ə. Yusifli X, 2008, s.174)

Poemanın məzmunu üzərində işə ayrılmış vaxtı səmərəli bölərək əsərin çoxşaxəli məzmununu mənimsətmək lazımdır. Müntəxəbatla işin bir xüsusiyyətini də qeyd etmək lazımdır ki, "İsgəndərnamə" poemasının məzmunu ilə bağlı müntəxəbatda verilmiş bir sıra faktlar dərslikdəki təhlildə öz əksini tapmayıb, məsələn dərslikdə İsgəndərin İsgəndəriyyəni inşa etdirdiyi qeyd olunur, "Müntəxəbat"da isə həm Dərbənd, həm də İsgəndəriyyənin

salınmasından danışılır. Dərslikdə türk xaqanının İsgəndərə köməyindən ötəri danışılsa da, "Müntəxəbat"da türk xaqanının İsgəndərlə görüşü təfərrüatları ilə təsvir olunur və s.

Əsərin məzmunu üzərində iş tamamlandıqdan sonra təhlillə bağlı məsələlərə diqqət yetirmək lazımdır. Mətn kifayət qədər mənimsənildikdən sonra şagirdlərin müstəqil işini istiqamətləndirmək olar. İsgəndər surətinin təhlilini müəyyən plan əsasında aparmaq olar:

- İsgəndər tarixi şəxsiyyət və Nizami qəhrəmanı kimi.
- İsgəndərin ədalətli müharibələri.
- İsgəndərin səhvləri.
- İsgəndərin ideal obraz kimi xüsusiyyətləri.
- İsgəndərin qadına münasibəti.
- İsgəndərin elm və alimlərə münasibəti.

Əsərdə bir neçə epizodda iştirak edən, lakin ideyanın açıqlanmasında müstəsna rolu olan surət heç şübhəsiz Nüşabədir. Nüşabə obrazı vasitəsilə Nizami bir çox problemlərə münasibətini bildirmək istəmişdir. Bu problemləri qadın və hakimiyyət, türk qadını və fatehlik iddiaları kimi qruplaşdırmaq olar.

Nizami, ümumiyyətlə, poema boyu İsgəndərin izi ilə getmir, qarşıya qoyduğu problemləri həll etmək üçün İsgəndəri istədiyi kimi hərəkət etdirir, getmədiyi ölkələrə aparır, yalnız sənətkarın özünə lazım olan şəraitlərdə təsvir edir. Əgər "Şərəfnamə"də İsgəndərin keçdiyi yol müəyyən ardıcıllıqla təsvir olunursa, "İqbalnamə"də artıq bu ardıcıllıq yoxdur. İsgəndər gah alimlərlə görüşür, gah dünya səyahətinə çıxır, gah da Xoşbəxtlər ölkəsinə düşür. Tarixi İsgəndər haqqında xeyli məlumatı olan X sinif şagirdləri anlamalıdırlar ki, Nizami öz fikirlərini ifadə etmək üçün bu üsuldan istifadə etmiş, tarixi İsgəndəri dəyişdirərək öz konsepsiyasına tabe etmişdir. Onun Nüşabə ilə görüşü, Çin xaqanı ilə qarşılaşması Nizami üçün sadəcə türklər haqqında danışmaq bəhanəsidir. İsgəndəri alimlərlə görüşdürən Nizami əslində Şərq və antik fəlsəfənin fikir dünyası haqqında öz mülahizələrini söyləyir. Əsərin son epizodlarında Nizami yenə də Tanrıya olan inamını ön plana çəkir. Onun fikrincə "Xoşbəxtlər ölkəsi Tanrıya tapınan və buna görə də Tanrı tərəfindən qorunan möminlərin ölkəsindən başqa bir şey deyildir" (8, 60).

Başqa sözlə, Tanrı sevgisi fikirdə deyil, əməldə olanda bəşər övladı mükafatlandırıla bilər. Xoşbəxtlər ölkəsində olduğu kimi!

## ƏDƏBİYYAT


1. "Ədəbiyyat" dərsliyi. 10-cu sinif üçün (2024) Bakı.
2. "Ədəbiyyat" dərsliyi. 5-ci sinif üçün (2024),Bakı.
3. Əhmədov C.(1971) Azərbaycan ədəbiyyatının tədrisi tarixi. Bakı.
4. Kərimli T. (2002). Nizami və tarix. Bakı.
5. Mikayılov Ş.(2007)Ədəbiyyat nəzəriyyəsi, 9-11-ci siniflər üçün vəsait. Bakı.
6. Səfərli Ə., Yusifli X.(2008) Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı.
7. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün proqram materiallarının planlaşdırılması. Metodik tövsiyə. Bakı, 2023.
8. https://dim.gov.az/CkImage/Proqramlar_2026_Az_1758717071.pdf

***Афаг ЮСИФЛИ***
***Кандидат филологических наук, доцент***

## ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЯ ТВОРЧЕСТВА НИЗАМИ В СРЕДНЕЙ ШКОЛЕ

***РЕЗЮМЕ***

*Ключевые слова:* преподавание, «Хамсе», «Искендернаме», учебник, хрестоматические темы

Преподавание наследия Низами Гянджеви как в средних, так и в высших учебных заведениях не должно быть схематичным, основанным на заученных и шаблонных мыслях. Прежде всего, преподавание этих произведений должно строиться на тексте и содержании, учащимся следует предоставить возможность самостоятельного мышления; вместо того чтобы знакомить их с готовыми фактами как с аксиомами, учебники должны быть построены таким образом, чтобы направлять их на самостоятельную работу. В то же время биографические факты должны быть тщательно отобраны, проверены и осмыслены, не упуская из виду даже самые незначительные детали. Нельзя забывать, что знания, почерпнутые из готовых анализов, очень быстро забываются и не оставляют следа в сознании читателя, слушателя, а по сути — ученика или студента; более того, что ещё хуже, они могут сохраняться в виде искажённой информации. Поэтому необходимо тщательно готовить не только учебники, но и хрестоматии, подбирая из произведений характерные фрагменты, которые создавали бы полное представление о произведении.Все вышесказанное, разумеется, относится к общим пожеланиям, связанным с преподаванием азербайджанской литературы в средней школе.Важно отметить одну существенную деталь: в последние два года творчество Низами в программах и учебниках по литературе преподаётся под общим заголовком «Литература эпохи Возрождения». Это относится как к учебникам 10-го класса, так и к учебникам для 5–8-х классов.

***Afag YUSIFLI***
***PhD in Philology, Associate Professor***

## ISSUES OF TEACHING NIZAMI'S CREATIVE WORKS IN SECONDARY SCHOOL

***SUMMARY***

*Keywords:* teaching, “Khamsa,” “Iskandarnama,” textbook, chrestomathic topics

The teaching of Nizami Ganjavi's heritage, both in secondary and higher education, should not rely on schematic, memorized, or stereotypical ideas. Above all, the teaching of these works should be based on the text and its content; students should be given the opportunity to think independently, and instead of introducing them to ready-made facts as axioms, textbooks should be structured in a way that guides independent work. At the same time, biographical facts should be selected and verified with precision, and even the simplest detail should not be overlooked. It should not be forgotten that knowledge taken from ready-made analyses is quickly forgotten and leaves no trace in the mind of the reader, listener - in fact, the student - sometimes even existing, which is worse, in a distorted form. Therefore, not

only textbooks but also anthologies should be prepared carefully, selecting characteristic passages from the works to create a complete understanding of them. All these statements, of course, reflect the desired approach to the teaching of Azerbaijani literature in secondary schools.

It is important to note that over the past two years, Nizami's works have been taught in literature programs and textbooks under the general heading "Renaissance Literature." This applies to both the 10th-grade and 5th–8th-grade textbooks.

***Daxil oldu: 26.10.2025-ci il***